# Zaur Ərmuğanın ilk kitabı

**Gənc şair Zaur Ərmuğan ilk kitabını çap etdirib. "Günəş ömrü istəyirəm" (Bakı - 2012) kitabı ilə Zaur ədəbiyyata ilk kövrək addımlarını atır, amma bu "kövrək"lik yazmağa yeni başlayan Zaurun kitabında toplanmış şeirlərində əsla hiss olunmur və kitabı oxuyub sona çatandan sonra hiss edirsən ki, o, ədəbiyyatda öz sözünü demək, öz açdığı yolla irəliləmək, ədəbi zirvələr fəth etmək üçün gəlib. Onun şeirləri bitkin, təcrübəli, sənətin çox sirlərindən xəbərdar olan bir qələm sahibindən xəbər verir.**

**Bağbanın sevgisi alın tərində,**
**Bağın səxavəti bardadır, demək,**
**Çəmən gözəlliyi çiçəklə yaşar,**
**Dağın yaraşığı qardadır, demək.**

Azərbaycan ədəbiyyatının yaşı minillərlə ölçülür və yaşı minillərlə ölçülən ədəbiyyatımızın böyük ədəbi simaları istənilən qədərdir. Ədəbiyyatın elə bir növü yoxdur ki, həmin növdə şairlərimiz ölməz incilər yaratmamış olsunlar. Bu mənada gənc bir insanın ədəbiyyatla məşğul olması həm çətin, eyni zamanda həm də məsuliyyətli bir işdir. Bayaq dediyim kimi, klassiklərimizi oxuyanda adama bəzən elə gəlir ki, artıq bütün sözlər- incə, zərif, fəlsəfi, romantik fikirlər deyilib. Amma hansısa yeni başlayan bu qələm sahibinin kitabını götürüb oxuyursan və həmin kitabdakı fikirləri, poetikliyi və məna tutumunu görüb fikrində yanıldığını hiss edirsən.

Zaur istedadlıdır, bu "Günəş ömrü istəyirəm" kitabında aydın sezilir. Amma yaxşı cəhətdir ki, bu istedadda gərgin zəhmət və mükəmməl mütaliə ilə vəhdətdədir. O, əsasən, klassik üslubda yazır: gəraylı, qoşma, qəzəl ... . "Öz qismətin", "Bu dünyada", "Söz", "Məhəbbət", "Ürəyimdə gətirmişəm", "Demək", "Ordadır", "Gözəldir", "İçində", "İmandadır", "Vardır" və s. şeirlərində Zaurun klassik ədəbiyyatdan mükəmməl surətdə bəhrələndiyi hiss olunur və bunu da xüsusi vurğulayaq ki, Zaurun nəinki ayrı - ayrı şeirlərində - hətta misralarında belə təqlidçilik yoxdur. Fikrimcə, hər bir şair üçün, xüsusilə yeni başlayan qələm sahibləri üçün bu ən ümdə şərtlərdən biridir.

Zaurun şeirlərinin baş mövzusu sevgidir: Yaradana olan sevgi, ilahi sevgi, vətən sevgisi, Sevgi mövzusu ədəbiyyatın ən təməl mövzusudur. Bu qısa məqalədə biz yalnız onun vətən sevgisi haqqında danışmağa zərurət duyuruq. Zaur çox dəqiq bilir və oxucusuna da təlqin edə bilir. Hər bir insan üçün ən ümdə sevgilərdən biri vətən sevgisidir. Vətənini sevməyən başqa heç nəyi sevə bilməz, vətən sevgisi tam olmayanın özü də tam ola bilməz.

**Ay vətən, de, necə aşiq olmayım,**
**Ruhumu oxşayan yelini sevdim.**
**Duydum vüqarını vuruldum sənə,**
**Qayaya çırpılan selini sevdim.**

Amma indi bu cənnət vətənin 20% torpaqları düşmən əlindədir. Hər bir vətənini sevən insan kimi bu ədalətsiz, məkrli işğal Zauru da incidir. Amma Zaur əsla bədbinliyə qapılmayıb. Onun sinəsində əbədi və əzəli düşmənə qarşı sonsuz bir qəzəb hissi var və nə yaxşı ki, o, qisas gününü səbirsizliklə gözləyən və o günün mütləq gələcəyinə inanan Zaur kimi gənclərimiz var və belə gənclər Zaurun şəxsində öz müqəddəs hisslərini kağıza köçürüb oxuculara təqdim edirlər.



**Sıxılır həsrətdən canımda ürək,**
**Təngiyir nəfəsim, havam ordadır.**
**Hanı Cıdırdüzüm, hanı Topxanam?**
**Qəribəm bu yerdə, obam ordadır.**

**Zauram, mərdliyim, dəyanətim çox**
**Tükənməz gücüm var, cəsarətim çox**
**Hələ döyüşməyə dəyanətim çox**
**Qaniçən azğınla davam ordadır.**

Böyük filosoflardan biri öz uşaqlıq illərini xatırlayır və öz uşaqlıq illərini obrazlı şəkildə "İtirilmiş cənnət" adlandırır. Zaurun "Uşaqlığım" şeirini oxuyanda həmin filosofun sözləri yadıma düşür.

**Uşaqlığım ayrılıb məndən**
**Tut ağacında qurduğum**
**yelləncək kimi.**
**Qartopası oynayanda geyindiyim,**
**Naxışlarla öyündüyüm**
**yun əlcək kimi**
**Uşaqlığım - indi xəyalım**
**Eh, nə qəmim vardı onda,**
**nə məlalım**
**Gör necə sadəymiş**
**Qayğısız günlərlə dolu badəymiş.**
**Yaxşı ki, bir vaxt onu**
**qismət olub içmişəm.**
**Səs gəlir uşaqlardan**
**hərdən yada düşəndə**
**O çağlardan:**
**- Daha ötüb keçmişəm.**

"Günəş ömrü istəyirəm" olduqca maraqlı kitabdır. Və düşünəndəki Zaur hələ gəncdir, onun gələcəyi hələ irəlidədir, qəlbimizi bir sevinc hissi bürüyür və inanırıq ki, bizim Neftçalada gələcəyin çox istedadlı şairi yaşayır, ədəbi yaradıcılıqla məşğul olur.

Sənə yeni - yeni uğurlar, yeni - yeni kitablar arzulayırıq, Zaur!.

**Yolun açıq olsun!**

**Etibar Əbilov**

ədalət.-2017.-5 may.-S.4.